VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 129-145
Telif Haqqı©Varlıq Dergisi

Məhəmmədtağı Zehtabi'nin Əsərlərində Azərbaycan Türk Dilinin və Tarixinin Tədqiqi Məsələləri

• **Dos. Dr. Sübhan TALIBLI** [1]

Xülasə: XX yüzilin ikinci yarısında Güney Azərbaycan'da yetişən görkəmli simalardan biri də profesor Məhəmmədtağı Zehtabi'dir (Kirişçi). Öz xalqının azadlığı və milli varlığı uğrunda gənc yaşlarında mübarizə meydanına atılmış bu insan çağdaş Güney Azərbaycan'da Türkçülüyün - Azərbaycançılığın köklərini arayan və bugünkü durumla əlaqələndirən görkəmli tədqiqatçı alim olub. M.T. Zehtabi yaradıcılığı çoxsahəlidir: tarix, ədəbiyyat, dilçilik, etrnoqrafiya və s. sahələri əhatə edir. Məqalədə Məhəmmədtağı Zehtabinin əsərlərində Azərbaycan Türkcəsinin tədqiqi məsələləri araşdırlımışdır.

M.T. Zehtabi'nin "İslam'a Qədər İran Türklərinin Dili və Ədəbiyatı. Ən Qədim Dövrdən İsgəndər'ə Qədər" və "İran Türklərinin Əski Tarixi". İsgəndər Dövründən İslam'a Qədər" iki cildlik əsərlərində Azərbaycan və İran Türklərinin İslam'dan öncəki dili, Azərbaycan və çağdaş İran Türklərinin İslam'dan öncəki qısa tarixi, Madların dili, şəxs və el adları və istilahları, İslam'a qədərki əski Türk ədəbiyatı, Manna və Mad ədəbiyatı, Partlar və Eşkanilərin dili, Partlar (Eşkanilər) dövrü Türk folkloru və ədəbiyatı, İslam'a qədərki Türk şerində formaya aid aparılmış elmi tədqiqatları Azərbaycan Türkcəsi öyrənilməsi baxımından əhəmiyətlidir.

Açar sözlər: Məhəmmədtağı Zehtabi, Cənubi Azərbaycan, Azərbaycan Türkcəsi, Azərbaycan ədəbiyatı, tədqiqat.

[1] AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent, E-post: subhantalibli@gmail.com, ORCİD: https://orcid.org/0000-0002-6331-5865

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 129-145
Telif Haqqı©Varlıq Dergisi

Muhammed Taki Zehtabi'nin Eserlerinde Azerbaycan Türkçesinin ve Tarihinin Araştırılması Meseleleri

• **Doç. Dr. Sübhan TALIBLI** [1]

Özet: XX. yüzyılın ikinci yarısında Güney Azerbaycan'da yetişen önemli şahsiyetlerden biri de Prof. Dr. Muhammed Taki Zehtabi'dir (Kirişçi). Kendi halkının özgürlüğü ve millî varlığı uğrunda genç yaşlarda mücadeleye atılan Zehtabi, çağdaş Güney Azerbaycan'da Türkçülüğün-Azerbaycancılığın köklerini araştıran ve bunları günümüz şartlarıyla ilişkilendiren önemli bir bilim insanı ve araştırmacıdır. M. T. Zehtabi'nin çalışmaları çok yönlüdür; tarih, edebiyat, dil bilimi, etnografya vb. alanları kapsamaktadır. Bu makalede Mehmet Taki Zehtabi'nin eserlerinde Azerbaycan Türkçesinin araştırılmasıyla ilgili meseleler incelenmiştir.

M. T. Zehtabi'nin "İslam'a Kadar İran Türklerinin Dili ve Edebiyatı: En Eski Dönemden İskender'e Kadar" ve "İran Türklerinin Eski Tarihi: İskender Döneminden İslam'a Kadar" adlı iki ciltlik eserlerinde; Azerbaycan ve İran Türklerinin İslam öncesindeki dili, Azerbaycan ve günümüz İran Türklerinin İslam öncesi kısa tarihi, Medlerin dili, kişi ve boy adları ile terimleri, İslam öncesi eski Türk edebiyatı, Manna ve Med edebiyatı, Partların ve Eşkanilerin dili, Partlar (Eşkaniler) dönemindeki Türk folkloru ve edebiyatı ile İslam öncesi Türk şiirinin biçim özellikleri üzerine gerçekleştirilen bilimsel araştırmalar, Azerbaycan Türkçesinin incelenmesi bakımından önem taşımaktadır.

Anahtar sözcükler: Muhammed Taki Zehtabi, Güney Azerbaycan, Azerbaycan Türkçesi, Azerbaycan edebiyatı, araştırma.

---

[1] Azerbaycan Milli Bilimler Akademisi Doğu Bilimleri Enstitüsü kıdemli araştırmacısı, Doç. Dr., E-posta: subhantalibli@gmail.com, ORCİD: https://orcid.org/0000-0002-6331-5865

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 129-145
Telif Haqqı©Varlıq Dergisi

Issues In The Study Of The Azerbaijani Turkish Language And History In The Works Of Mohammad Taghi Zehtabi

• **Subhan TALIBLI** [1]

Abstract: In the second half of the twentieth century, one of the prominent intellectual figures to emerge from South Azerbaijan was Prof. Dr. Mohammad Taghi Zehtabi (Kirishchi). Having joined the struggle for the freedom and national identity of his people at a young age, Zehtabi became a distinguished scholar who explored the historical roots of Turkism and Azerbaijanism in contemporary South Azerbaijan and related them to present-day conditions. M. T. Zehtabi's scholarly work is multidisciplinary, encompassing history, literature, linguistics, ethnography, and other fields. This article examines issues related to the study of Azerbaijani Turkish in the works of Mohammad Taghi Zehtabi.

In his two-volume works, The Language and Literature of the Turks of Iran before Islam: From the Earliest Period to Alexander and The Ancient History of the Turks of Iran: From the Period of Alexander to Islam, M. T. Zehtabi conducts scholarly research on the pre-Islamic language of the Turks of Azerbaijan and Iran; the pre-Islamic history of Azerbaijan and the Turkish population of present-day Iran; the language of the Medes; personal and tribal names and terminology; ancient pre-Islamic Turkish literature; the literature of the Mannaeans and Medes; the language of the Parthians and Arsacids; Turkish folklore and literature during the Parthian (Arsacid) period; and the formal features of pre-Islamic Turkic poetry. These studies are significant for the study of Azerbaijani Turkish.

Keywords: Mohammad Taghi Zehtabi, South Azerbaijan, Azerbaijani Turkic, Azerbaijani literature, research.

[1] Senior Researcher at the Institute of Oriental Studies of ANAS, PhD in History, Associate Professor, Email: subhantalibli@gmail.com, ORCID: https://orcid.org/0000-0002-6331-5865

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 129-145
Telif Haqqı©Varlıq Dergisi

مسائل بررسی زبان ترکی آذربایجانی و تاریخ آذربایجان در آثار محمدتقی زهتابی

• دکتر سبحان طالیبلی[1]

چکیده: یکی از شخصیت‌های برجسته‌ای که در نیمه دوم قرن بیستم در آذربایجان جنوبی پرورش یافت، پروفسور دکتر محمدتقی زهتابی (کیریشچی) است. زهتابی که از سال‌های جوانی در راه آزادی و موجودیت ملی ملت خود قدم به عرصه مبارزه گذاشت، از دانشمندان و پژوهشگران برجسته‌ای بود که در آذربایجان جنوبی معاصر، ریشه‌های ترک‌گرایی ـ آذربایجان‌گرایی را مورد بررسی قرار داده و آن‌ها را با شرایط روز پیوند می‌داد. حوزه فعالیت‌های علمی م. ت. زهتابی بسیار گسترده و متنوع است و تاریخ، ادبیات، زبان‌شناسی، مردم‌شناسی و دیگر زمینه‌ها را دربرمی‌گیرد. در این مقاله، مسائل مربوط به بررسی زبان ترکی آذربایجانی در آثار محمدتقی زهتابی مورد مطالعه قرار گرفته است.

پژوهش‌های علمی م. ت. زهتابی در دو اثر او با عنوان‌های «زبان و ادبیات ترکان ایران تا اسلام: از کهن‌ترین دوران تا اسکندر» و «تاریخ باستانی ترکان ایران: از دوره اسکندر تا اسلام» درباره موضوعاتی چون زبان ترکان آذربایجان و ایران در دوره پیش از اسلام، تاریخ مختصر پیش از اسلام آذربایجان و ترکان ایران امروزی، زبان مادها، نام‌های اشخاص و طوایف و اصطلاحات مربوط به آن‌ها، ادبیات کهن ترک پیش از اسلام، ادبیات مانا و ماد، زبان پارت‌ها و اشکانیان، فولکلور و ادبیات ترکی در دوره پارت‌ها (اشکانیان) و نیز ویژگی‌های صوری شعر ترکی پیش از اسلام، از نظر مطالعه و بررسی زبان ترکی آذربایجانی دارای اهمیت است.

کلیدواژه: محمدتقی زهتابی، آذربایجان جنوبی، زبان ترکی، ادبیات آذربایجان، پژوهش.

[1] دانشیار، پژوهشگر ارشد مؤسسه شرق‌شناسی آکادمی ملی علوم آذربایجان، ایمیل: subhantalibli@gmail.com
اورسید: https://orcid.org/0000-0002-6331-5865

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 129-145
Telif Haqqı©Varlıq Dergisi

Məhəmmədtağı Zehtabi'nin Əsərlərində Azərbaycan Türk Dilinin və Tarixinin Araşdırılması Məsələləri

● Sübhan TALIBLI

Həyatı və ictimai fəaliyyəti

M.T. Zehtabi 1946-cı ildə Azərbaycan Millî Hökuməti dövründə Güney Azərbaycan'da açılmış Təbriz Üniversitəsi'nin ilk məzunlarından olub. Üniversitə təhsilini başa çatdırmaq və İran'dakı rejimin siyasi təqiblərindən yaxa qurtarmaq üçün Quzey Azərbaycan'a mühacirət etmiş və orada qısa müddət ərzində Azərbaycan Türklərinin tarixi, dili və ədəbiyyatına aid bir neçə kitab çap etdirmişdir. 1979-cu ildə İran'da Pəhləvi rejimi yıxıldıqdan sonra Vətəni Təbriz'ə qayıdan profesor Zehtabi öz elmi araşdırmalarını geniş aspektdə davam etdirmişdir. Vəfatınadək (1998-ci il 23 sentyabr) Azərbaycan tarixi haqqında yazdığı əsərlər bütöv Azərbaycan tarixşünaslığında yeni bir cığır açmışdır. (Talıblı, 2002, ss. 267-269.)

Onun o dövrdəki yazdığı şah əsərlərdən biri də, 1946-ci il Azər 24-də dekabrın 15-də Pəhləvi rejimi tərəfindən Türkcə təhsilə və məişətdə danışığa belə yasaq qoyulduğu dövrdə yazdığı "Sən osan, mən də buyam" şeiri olmuşdur. Şeirdə deyilir:

"Su" deyibdir mənə əvvəldə anam, "ab" ki yox.
"Yuxu" öyrətdi uşaqlıqda mənə, "xab" ki yox.
İlk dəfə ki, "çörək" verdi mənə, "nan" demədi.
Əzəlində mənə "duzdan"ə "nəməkdan" demədi.
Anam "əxtər" deməyibdir mənə, "ulduz" deyib o.

Su donanda deməyib "yəx"di bala, "buz" deyib o.
"Qar" deyib, "bərf" deməyib, "dəst" deməyib, "əl" deyib o.
Mənə heç vaxt "biya" söyləməyib "gəl" deyib o.
Yaxşı xatırlayıram, yaz günü axşam çağılar,
Bağçanın günçıxanında ki, ılıq gün yayıla.
"Gəl deyərdi darayım başıvı", ey nazlı bala.
"Gəlməsən gər bacıvun astaca zülfün dararam".
O deməzdi ki, "biya şane zənəm bir sər-e to".
"Gər nəayi be-zənəm şane sər-e xaləri to".
Bəli, daş yağsa da göydən, sən osan, mən də buyam.
Var sənin başqa anan, vardı mənim başqa anam.
Özümə məxsus olan başqa elim vardı mənim.
Elimə məxsus olan başqa dilim vardı mənim.
İstəsən qardaş olaq, bir yaşayaq, birlik edək,
Veribən qol-qola bundan sonra bir yolda gedək.
Əvvəla, özgə küləklərlə gərək axmayasan,
Saniyən, varlığıma, xalqıma xor baxmayasan.
Yoxsa gər zor deyəsən, millətimi xar edəsən.
Gün gələr səhfə çönər, məcbur olarsan gedəsən.

Təbriz, 22 Azər 1325/1946.

134

Doktor M.T. Zehtabi (1383) "21 Azər" hərəkatının haqqındakı məqaləsində Azərbaycan Demakrat Firqəsi'ni Azərbaycan'ın, İran'ın və Yaxın və Orta Şərq xalqlarının milli azadlıq hərəkatında mühüm rol oynadığını qeyd edərək yazır:

> *"…Bu hərəkat II. Dünya Savaşından sonra ümumən İran və Azərbaycan azadlıq hərəkatının, xüsusən milli azadlıq hərəkatının zirvəsidir. Bu hərəkat əleyhinə olanlar, istər daxildə və istərsə də xaricdə bölücülük adlandırsalar və onun biganələrin əliylə yarandığını iddia etsələr də o, əslində, … heç bir xarici əl vasitəsiylə yox, dövrün ictimai hadisələrinin istəyi və iradəsi ilə yaranmışdı…*" (Zehtabi, 1383, s. 74-77).

"21 Azər" hərəkatında ən əsas məsələlərdən biri də milli haqlar məsələsiydi, lakin o bu haqları təkcə Azərbaycanlılar üçün yox, həm də bütün İran'da yaşayan xalqlar üçün istəyirdi. Azərbaycan Demokrat Firqəsi İran'da azadlıq və demokrasiinin bərqərar olmasını bir tərəfdən hürrüyətçi quvvələrin köməyi, ikinci tərəfdən isə, məhrum millətlərin Azərbaycan kimi öz milli haqlarına çatması yolu ilə başa düşür. Çünkü Firqə və onun rəhbərləri milli zülmün acısını dadmış və çox millətli İran'da milli quvvənin necə böyük qudrət olduğunu yaxşı bilirdilər. Onlar yaxşı başa düşürdülər ki, əgər məhrum İran millətləri Azərbaycan kimi öz haqlarını almaq üçün birlikdə ayağa qalxsalar, İran irticası mütləq

yıxılacaqdır… II. Dünya Savaşından sonra "21 Azər" hərəkatı dünyada qələbə çalan birinci milli azadlıq hərəkatı idi.

> *Buna görə də, bütün dünya xalqlarının diqqətini cəlb etmişdi. Əgər 1946-1947-ci illərdə «Azərbaycan» qəzetinin səhifələrinə baxsanız, Fransa və s. Avrupa ölkələrinin ictimai-siyasi təşkilatlarını və siyasi şəxsiyyətlərinin "21 Azər"in qələbəsi münasibətiylə göndərdikləri təbrik teleqramları diqqəti cəlb edəcəkdir. "21 Azər" zamanı bütün Şərq və Afrika xalqları, o cümlədən Yaxın və Orta Şərq regionu xalqları istibdad və imperializmin pəncəsi altında ən ağır və fəlakətli günlər keçirirdilər. Bu xalqların hürriyə*tçiləri*, o cümlədən Iraq, Əlcəzair, Tunis və s. ölkə və xalqların mütərəqqi şəxsləri kimi və ya şifahi şəkildə "21 Azər" hərəkatını səmim-i qəlbdən təbrik etmiş və ondan böyük ümid gözlədiklərini bildirmişlər. "21 Azər" hərəkatı bu xalqların mübarizə ruhunun güclənməsinə ciddi təsir etmişdir*". (Zehtabi, 1383, s. 74-77).

O dövrdə bir çox gənclər sovetlər ölkəsini azad bir ölkə bilib, oraya getməyə can atırdılar. Zehtabi hələ öz arzusuna çatmaq və habelə ana dilində yüksək təhsil almaq üçün doğma yurdunu tərk edir. Lakin onu Bakı'ya deyil, Sibir həbsxanasına göndərirlər. Heç bir günahı olmadan 3 il Sibir'də sürgün həyatı yaşayır. "Şahin Zəncirdə" mənzuməsində belə yazır:

Azad doğulan insana qandal nə gərəkdir?
Qandalları qırmışlara zindan nə deməkdir?
Dünya nələrin var?
Əfsanələrin var?
Biçarə bəşər ölçüyə gəlməz kədərin var.
Qanlar tökərək qandalı qırdın ayağından
Qandalları yığdın və qayırdın yekə zindan!
Daim başın üstündə gəzib qəm və fəlakət.
Bir gün səni zəncirlədi sultan
Bir gün də «azadlıq və ədalət»!!

Nəhayət, 3 ildən sonra Zehtabi Sibir sürgünündən buraxılır və bu dəfə Düşənbə şəhərinə sürgün edilir. Orada onun Təbriz'də aldığı bütün təhsil sənədləri yox olduğu üçün təkrar diplom almağa məcbur olur və nəhayət, Bakı'ya gələrək Azərbaycan Dövlət Üniversitəsi'ndə Azərbaycan Türkcəsi üzrə namizədlik tezini müdaifə edərək filoloji elmləri namizədi elmi adı alır və eyni üniversitədə Ərəb dili müəllimi olaraq işləyir. (Dilmac dergisi, 2004, S. Dey, s. 3). Talıblı S.Ə. (2006) "Profesor Məhəmmədtağı Zehtabi və onun əsərləri haqqında" adlı məqaləsində yazır*:*

> *"O, istər müəllimlik illərində, istərsə də üniversitəni bitirdikdən sonra yazdığı bütün əsərlərində ana dilimizi öyrənir və tanıtdırmağa*

çalışır, xalqımızın keçmiş tarix və ədəbiyyatından söhbət açır, oxuyanların marağını öz ana dillərinə artırıb, onlarda öz milli kimliliyinə bağlılıq yaradır". (Talıblı, 2006, s. 31).

Dr. Zehtabi çağdaş tariximizdə ilk dəfə olaraq 1981-ci ildə "Mütərəqqi İran Türklərinin Roşənfikrililər (ziyalılar) Cəmiyyəti»ni yaradıb və «Birlik» adında aylıq Farsca və Türkcə dərgi nəşr etdirmişdir.

Zehtabi xaricdə olduğu zaman, birinci dəfə olaraq ana dilimizdə "İran Türkcəsinin Sərfi (morfologiyası ḌS.T.)" kitabını yazıb, çap etdirmişdir, bu kitab inqilabdan sonra da doktorun ən yaxın dostlarından olan hörmətli Əli Xalitabadi'nin təşəbbüsü ilə, müasir ədəbi dilimizin morfolojisi adı ilə çap olub, yayılmışdır. Profesor Zehtabi İran inqilabından sonra Təbriz Üniversitəsi'ndə Türk dili və ədəbiyatı müəllimi olmuş və çoxlu müəllim yetirmişdir. O dövrdə ilk dəfə olaraq 20 səhifədən ibarət «Ana Dilimizi Necə Yazaq» əsərini 3000 tirajla Rüşdiyə yayımı vasitəsiylə çap etdirmişdi. Bu qısa əsərdə dilimizin əsas Ḍ səs qanunları, ahəng qanunu açıqlanmışdır ki, əlifbanı düzgün yazıb, oxumağımızda yazıçılarımıza bir mənbə olub, sonralar keçirilən ortoqrafi ilə bağlı seminarlarda ondan çox faydalanmışlar.

Doktor Zehtabi inqilabdan sonra Təbriz Radyo və Televizyon Quurumu'nda ana dilimizdə Azərbaycan Türkcəsində verilişlər yayımlamaq üçün kadrlar yetirmişdir. *"Burun-mərzi" ("Sərhəddən kənar Ḍ S.T.")* xəbərləri Azərbaycan Türkcəsində aparanlar vaxtilə onun şagirdləri olmuşlar.

Zehtabinin əsərlərində Azərbaycan Türkcəsinin öyrənilməsi

M.T. Zehtabi'nin (1378) "İran Türklərinin Əski Tarixi" adlı əsərinin birinci cildi ən qədim dövrdən Makedoniyalı İsgəndər'ə qədər olan uzun bir zamanı əhatə edir. Bu cilddə miladdan əvvəl IV-II minilliklərdə Yaxın Şərqdə yaşayıb mədəniyyət qurmuş Türk xalqlarının dövlətləri və mədəniyyətləri geniş aspektdə verilir, o dövrün Türkcəsi ilə bu dövrün Türkcəsi qarşılaşdırmalı şəkildə araşdırılır. Bu gün İran kimi tanıdığımız ərazidə Farsların bu yerlərə gəlməsinə qədərki 3500 ildə Türklərin qurduğu dövlətlər və mədəniyyətlər tədqiq və təhlil edilir. (Zehtabi, 1378)

M.T. Zehtabi'nin (1999, 1379) "İran Türklərinin Əski Tarixi" adlı kitabının ikinci cildi İsgəndər dövründən İslam'a qədər olan bir zamanı əhatə edir. Bu cilddə İsgəndər'in hücumu, Əhəmənilərin sonu, Atropaten dövləti, Alban dövləti, Partlar, Sasanilər dövlətlərinin yaranması və süqutu bu dövrdə güneyli-quzeyli Azərbaycan'ın sosial, siyasi, iqtisadi və mədəni həyatı zəngin qaynaqlar əsasında tədqiq və təhlil edilir (Zehtabi, 1379).

Zehtabi'nin qələmindən çıxan və böyük axtarışların nəticəsi olan "İran Türklərinin Əski Tarixi" adlı çox cildlik dəyərli kitabından sonra "İslam'a Qədərki İran Türklərinin Dili və Ədəbiyatı" kitabı sözün həqiqi mənasında Azərbaycan tarixinin qədim dövrünün tədqiqində yeni bir elmi mərhələdir. M.T. Zehtabi'nin (1380) bu kitabında Azərbaycan Türklərinin tarixinə aid verilmiş bölmə də elmi və nəzəri cəhətdən maraqlıdır. (Zehtabi, 1380)

Kitabda Azərbaycan və çağdaş İran Türklərinin İslam'dan öncəki qısa tarixi, Azərbaycan və İran Türklərinin İslam'dan öncəki dili, Madların dili, şəxs və el adları və istilahları, İslam'a qədərki Türklər və azərilər daxilində, İslam'a qədərki əski Türk ədəbiyatı, Manna və Mad ədəbiyatı, Partlar və Eşkanilərin dili, Partlar (Eşkanilər) dövrü Türk folkloru və ədəbiyatı, İslam'a qədərki Türk şeirində biçimə aid aparılmış elmi araşdırmalar Azərbaycan tarixşünaslığı baxımından son dərəcə əhəmiyətlidir. Bu kitabın giriş hissəsində "Azərbaycan və çağdaş İran Türklərinin İslam'dan Öncəki Qısa Tarixi" bölməsi Azərbaycan tarixinin qədim dövrünün öyrənilməsi baxımından olduqca əhəmiyətlidir. Müəllif bu kitabda müasir dövrdə Azərbaycan'ın qədim dövr tarixi ilə əlaqədar yazır ki,

> *"… ana dilimiz və ədəbiyatımızın neçə minillik vəziyyəti, keçdiyi yolları, uğradığı müsbət və mənfi hadisələri bilmək və araşdırmaq üçün Azəri xalqımız və ümumiyətlə çağdaş İran Türklərinin o dövrdəki durumu və keçdiyi yollarla yığcam və qısa şəkildə tanış olmaq zəruridir. İslam'dan əvvəlki 4-5 min illik tariximizlə bu tanışlıqdan məqsəd yalnız və yalnız dilçilik və ədəbiyatşünaslıq baxımından deyil, folklor və ədəbiyatımızın siyasi, iqtisadi və sairə tarixi hadisələrlə ilgili olaraq keçdiyi yolu qısa aydınlaşdırıb açıqlamaq və bu sahədə ilk addımlar atmaqdır, yoxsa İslam'dan qabaq neçə min illik zəngin tariximizi, hətta yığcam və qısa şəkildə belə, yazmaq üçün cildlərlə əsər lazımdır…"*(Zehtabi, 1380, ss. 164-276.)

Dr. Zehtabi'nin yaradıcıllığında tarixi aspektdə yazılmış və yuxarıda haqqında danışılan kitablar və onun dövrü mətbuatda çap olunmuş məqalələri, İran daxilində və beynəlxalq miqyasda elmi konfrans və səmpoziyumlardakı çıxışları məhz bu zərurəti aydınlaşdırmağa, Azərbaycan tarixini şovinstlərin və sifarişlə yazılan əsərlərin saxtakarlığından, təhriflərindən xilas etməyə yönəlmişdir. M.T. Zehtabi (1380) "İslam'a Qədər İran Türklərinin Dili və Ədəbiyatı" əsərində tariximizin qədim dövrü haqqında fikrini belə ümumiləşdirir:

> *"Tarixə məlum olan Miladdan 4-5 min il əvvəldən İslam'a qədərki uzun bir dövrdə çağdaş İran'ın bütün Qərbi, Mərkəzi və Xəzər'in güney əyalət və mərkəzlərində, Şimali və Cənubi Azərbaycan da daxil olmaqla, həmişə Türk dilli ellər, qəbilələr, el birləşmələri və xalqları yaşayıb, bəşəriyətin və İran'ın ən əski və ən zəngin mədəniyətini,*

hünəri və sənətini yaradaraq, onunla bütün Yaxın Şərq, Misir və hətta Avrupa'ya örnək olmuş və yol göstərmişlər. Çağdaş İran'ın bu göstərdiyimiz yerlərinin həmişə Türk dilli olmuş əhalisi, göstərdiyimz min illiklərdə vahid Türk dilində danışmış, bəşəriyətin ən yüksək mədəniyətlərindən birini yaratmışlar". (Zehtabi, 1380)

Zehtabi (1380) Azərbaycan və İran Türklərininin İslam'dan öncəki dili haqqında yazır:

"…Azərbaycan, çağdaş İran'ın qərbi, mərkəzi və Xəzər'in cənubu və qərbi sahillərində İslam'dan əvvəl yaşamış xalqların dilləri barədə geniş məlumat, o dillərin tarix boyu hansı mərhələlərdən keçməsi, qayda-qanunlarının hansı dəyişikliklərə uğrayaraq bugünkü şəklə düşməsinə dəqiq və hərtərəfli araşdırıb öyrənmək üçün həm İlamların göstərdiyimiz lövhələri (Məhəmmədtağı Zehtabi (M.Şəbüstərli) (1380). "İslama qədər İran Türklərinin Dili və Ədəbiyatı". Təbriz, "Əxtər» nəşriyyatı, s. 164-276), *həm də başqa sənəd və materialları təhqiq etmək lazımdır. Lakin buna baxmayaraq, biz əldə etdiyimiz tarixi lövhələrin və yazıların materialları əsasında o dövrki Türk dili ilə ümum Türk dili arasında dilçilik baxımından çeşidli ilgi və əlaqələri açıb göstərməklə 5-4 min il əvvəlki və dillərini çağdaş azəri xalqı və İran Türkləri dilinin ulu babası olmasını sübut etməyə çalışmışıq. Bu əski dillərlə çağdaş azəri və İran Türklərinin dili arasındakı bu əlaqə və ilgini biz bu dillərin ümumi leksik, əsas lügət fondu, lügət tərkibi, morfologiya qaydaları və ünsürlərini müqayisə etməklə göstərməyə çalışmışıq".* (Zehtabi, 1380, s.30.)

M.T. Zehtabi (1379) ana dili ilə bağlı xatirələrini "Müasir Ədəbi Azəri Dili (səs Ḍ sərf» əsərində belə qeyd edir:

"*1945-ci (1324) il gəldi. "Azərbaycan" qəzeti yenə də nəşr olmağa başladı. Bu qəzetlə tanışlıq məni ayırılmaz şəkildə ana dilimə bağladı. Ana dilimdə yazmağa başladım. Bu dövrdən ana dilimi elmi cəhətdən öyrənmək ürəyimdə mühüm hədəf və arzularımdan birinə çevrildi. Ana dilimi sevdim, sevdikcə dərinləşdim və dərinləşdikcə onu daha artıq sevdim. Üniversitəyə daxil olub elmi cəhətdən öyrənmək üçün o zaman mövcud olan bütün qapıları döydüm, can atıb çabaladımsa, hamısı üzümə bağlı oldu.* (Zehtabi, 1379).

Bu hədəfə çatmaq üçün Bakı deyə qaçaq Şurəvi'yə getdim. Lakin orada da Sadiq Padiqan'ların göstərişiylə üniversitə əvəzinə mühakimə olunaraq Sibir'də işləməyə göndərildim. İki il sonra Sibir'dən Tacikistan'ın paytaxtı Düşənbə şəhərinə göndərildim. Burada öyrəndim ki, Şurəvi'də üniversitəyə daxil olmaq üçün orta məktəb diplomu lazımdır. Mən isə orta məktəb diplomumdan (Daneşsəra və şeş ədəbi Firdovsi) heç birisini özümlə gətirəbilməmişdim. Bir il burada axşam məktəbində oxuyub diplom alaraq onu bir ərizə ilə Bakı Üniversitəsi'nə göndərdim. İki həftə sonra oradan müsbət cavab aldıqdan. kitablarımı yığışdırıb Bakı'da oxumağa getdim və yataqxanada yerləşdim. Hələ oxu

ilindən on gün keçmişdi. Dərslər tamam yoluna düşməmişdi. Günlərin birində yataqxana məsulu (müdir-S.T.) yanıma gəlib adımı soruşduqdan sonra:

Səni Üniversitənin rektoru çağırır, dedi get gör nə deyir. Eşitmişdim ki, Bakı Üniversitəsinin rektoru böyük kimyaçı, ixtiraçı akademik Naxçıvanlı Yusif Məmmədəliyev idi. O, İkinci Dünya Müharibəsi dövrü kimya elmi sahəsindəki yeni elmi ixtirarları ilə Sovet ordularının qəti məğlubiyətdən nicat vermişdi. Rektorun otağına getdim. Katibəsi adımı soruşub içəri girdi və qayıdaraq:

Buyurun deyə məni içəri buraxdı. İçəri daxil olub salam verdikdə, öz stolu arxasında oturmuş akademik Yusif Məmmədəliyev adımı və hər haralı olduğumu soruşduqdan sonra:

Hansı fakültədə oxumaq istəyirsən?, Ḍ deyə soruşdu.

- Azərbaycan Dili və Ədəbiyatı Fakültəsində, Ḍ deyə cavab verdikdə, rektor qabağında olan diploma işarə edərək, Ḍ belə yaxşı qiymətlərlə niyə orada oxuyursan, gəl Kimya Fakültəsi'ndə oxu, dedi.

- Hörmətli akademik, mənim xalqımın ehtiyacı bunadır, Ḍ deyə cavab verdim.

Bu sözlərimi eşidən Üniversitənin rektoru akademik ilan vurmuş kimi dik yerindən qalxıb gəldi və mənimlə səmimi və möhkəm əl verərək, Ḍ sənə müvəffəqiyətlər arzulayıram, Ḍ deyərək məni yola saldı.

… Bakı Üniversitəsini qurtarmağa yarım il qalandan həmin Üniversitənin Şərqşünaslıq Ənstitusu'nda Ərəb dili və ədəbiyatını tədris etməyə və elə bu günlərdə ana dili barədə də əldə etdiyim biliyi xalqıma çatdırmaq haqqında fikirləşməyə başladım. Axı xalqımın ona ehtiyacı var idi. Bu hədəfə çatmaq üçün xalqıma qovuşmalı idim. Xalqıma qovuşmaq üçün də əvvəla, özüm Sovet birliyinin dəmir divarını yarıb oradan çıxmalı və ikincisi, quldur şah rejimini zaman devirməli idi". (Zehtabi, 1379).

Zehtabinin əsərlərində Azərbaycan tarixinin araşdırılması

Onun qələmindən çıxan və böyük axtarışların nəticəsi olan "İran Türklərinin Əski Tarixi" adlı çox cildlik dəyərli kitabından sonra "İslam'a Qədərki İran Türklərinin Dili və Ədəbiyatı" kitabı sözün həqiqi mənasında Azərbaycan tarixinin qədim dövrünün tədqiqində yeni bir elmi mərhələdir.

"İran Türklərinin Əski Tarixi"nin birinci cildi ən qədim dövrdən Makedoniyalı İsgəndərə qədər olan uzun bir zamanı əhatə edir. Bu cilddə miladdan əvvəl IV-II minilliklərdə Yaxın Şərqdə yaşayıb mədəniyyət qurmuş Türk xalqlarının dövlətləri və mədəniyyətləri geniş aspektdə verilir, o dövrün Türkcəsi ilə bu dövrün Türkcəsi müqayisəli şəkildə

araşdırılır. Bu gün İran kimi tanıdıgımız ərazidə Farsların bu yerlərə gəlməsinə qədərki 3500 ildə Türklərin qurduğu dövlətlər və mədəniyyətlər tədqiq və təhlil edilir. (Zehtabi, 1378)

Müəllif bu kitabın "Cənubi Azərbaycan Tarix Elminə Bir Baxış" bölməsində yazır:

> "*Müxtəlif elm sahələrində olduğu kimi, tarix sahəsində də Fars şovinizminin tərəfdarı olan alimlər meydana gəldi. Bu İran alimləri Avrupa alimlərinin qədim Şərq tarixi barədəki fikirləri və yazılarını Fars şovinizmi nöqteyi-nəzərindən araşdırıb yazmağa və kitablar nəşr etməyə başladılar. Bu tarix kitablarının ən əhəmiyətlisi Həsən Pirniya'nın (Müşirüddövlə) 3 cildlik «İran-e Bastan» əsəridir. Bu əsərdə Avrupa tarixçilərinin əksinə və Fars şovinizminin istəyinə əsasən, heç bir sənəd və dəlil olmadan, belə bir iddia irəli sürülmüşdür ki, bugünkü İranın xalqları qədim dövrlərlə Arilər ırqı olmuşdur, o cümlədən bugunkü azərilər, Qaşqaylar, Həmədanlılar, Türkmənlər yaşayan ərazisinin sakinləri Türkdilli deyil, Hind və Avrupa dilləri qrupuna aid olmuşlar. Bu dəlilsiz iddiaya görə, bugünkü Türkdilli Azərbaycan əhalisi guya qədim zaman və Arilər ırqı, kök etibarilə Fars və ümumiyətlə, Hind və Avrupa dilli olmuşlar və sonralar Türklər Şərqdən axaraq, bu yerlərdə yurd salmış və bu yerlərin Fars əhalisini Türkləşdirmişlər*". (Zehtabi, 1378, s. 12)

Sərvan Kaviyanpur "Tarix-e Umumi-ye Azərbaycan" əsərində, Seyid İsmayıl Vəkili "Azərbaycan Piş Əz Tarix və Pəs Əz An" əsərində, Profesor Mehr'in "Tarix-e Ərmənestan" əsərində, Artur Kristin "İran Dər Zaman-e Sasaniyan" əsərində, Dr. Natel Xanləri "Tarix-e Zəban-e Farsi" və başqa əsərlərində, Fransalı alim Krişmən "İran Əz Ağaz Ta Eslam» əsərində, Dr. Məhmməd Cavad Məşkur "Partiha ya Pəhləviyan-e Qədim" Madlar və Partların Ari ırqı olmasını qəti və dəlili olmayan bir həqiqət kimi göstərmişlər. Halbuki, gerəçəklik bunun tamamilə əksinə olmuşdur. Çünkü tarixin göstərdiyinə görə, iltisaqi (aqqlütinativ) dilli və Orta Asiya'dan gəlmə ellər, xalqlar və tayfalar 3 min il Aryalardan qabaq regionumuz, o cümlədən Azərbaycan'da əsas xalqlar, yaşayanlar olmuş və Aryaların gəlməsinə qədər özləri müxtəlif dövlətlər qurub hakimiyət etmişlər. Bu iltisaqi dilli xalqlar (arilər) İran səhrasına (yayla) gəldikdən sonra da, müxtəlif dövrlərdə Orta Asiya'dan gələn təzə Türk axınları ilə güclənmiş və tarix boyu həmişə Arilərlə birlikdə İran'ın müəyyən yerlərində olmuş…və birlikdə yaşamışlar". (Zehtabi, 1378, s. 16)

Qədim Azərbaycan Tarixinə Giriş bölməsində Zehtabi yazır:

> *"Azərbaycan'ın torpaqları istər Şimali, istərsə də Cənubi Yaxın və Orta Şərq regionunun ayrılmaz bir hissəsidir, buna görə də Azərbaycan tarixi lap ilk gündən əvvəlki tarix və tarixi dövrlərdən, həmişə Yaxın və Orta Şərq regionu və onun xalqları tarixi ilə bağlı olmuş və bu gün də bağlıdır. Bu, olduqca təbii və qanunauyğundur. Ayrı cür təsəvvür etmək*

səhvdir. Ona görə ki, qədim dövrlər bugünkü ilgi və münasibət vasitəsininin (yolunun) olmaması ucundan, əsasən qonşu və bir-birinə yaxın olan, eyni regionda yerləşən xalqlar bir-birilə müxtəlif, siyasi-iqtisadi və mədəni əlaqədə olmuş, buna görə də bir-birinə təsir göstərmiş, bir yazılı tarix səhnəsinə qədəm qoyduqda başqalarının da tarix səhnəsinə çıxmasına səbəb olmuşdur. Eyni regionun xalqları və tarixləri bir-birinə bağlı olmuşdur". (Zehtabi, 1378, ss. 34-35)

Azərbaycan Torpaqlarında İlk İnsan İzləri bölməsində qeyd edir ki;

"*Azərbaycan mülayim ab-həvası, çayları, dəniz kənarı yerləri, bir sıra regionlarında və ormanlıqları göstərir ki, bu diyar bəşəriyətin ilk ocaqlarından biri, bəşərin, insanın yarandığı region və yerlərdən biri olmuşdur…Bu yerlərin biri də Azərbaycan ərazisi, daha dəqiq desək, Xəzər Dənizinin ətrafı, Xəzər'lə Aral Gölü, Amudərya və Sırdərya çayları arası və o çayların dörd bir tərəfi olmuşdur. İqlim baxımından bu ərazi birlikdə və vahid xüsusiyətə malikdir, özü də həyata münasib regiondur…Azərbaycan torpaqları Xəzər ətrafı və Balxaş Gölü'nə qədər vahid bir region olub və orada yaranan xalqlar iltisaqi və xüsusilə Türk dilli olmuşdur. Bu gerçəklik müxtəlif tarixi mənbələr, o cümlədən Çin tarixçisindən alınan məlumat göstərir".* (Zehtabi, 1378, ss. 148-149)

Qobustan yazıları haqqında isə belə yazır:

"Qobustan yazıları Bakı'nın 50 kilometr cənubunda Səlyan'a gedən yolun kənarında, Xəzər sahillərinə yaxın bir yerdədir. Dənizə yaxın geniş düzənlik olan bu yerin hər tərəfi böyük qayalarla örtülmüşdür. Qobustan'ın çox yerində yerin üstündəki qayalarda, bəzən isə 2, 3 metr yerin altındakı qayalarda naxışlar vardır. Bu naxışların bəzilərinin hərfi heroqlifə bənzəyir. Yer altından çıxan bu naxışlı daşlar olan yerlərdən bəzi şeylər, əmək alətləri, silahlar və heyvan sümükləri də tapılmışdır. Qobustan daşlarında olan naxışlardan dağ keçisi, qayıq şəkli və qayıqların burunlarında olan günəş rəsmi, habelə dəstəcəm rəqs və ya "yallı" daha artıq diqqəti cəlb edir. Bu qaynaqların bəzisində kürək vuranlar və hətta kürəklərin də şəkilləri vardır. Bu qayıqlar, kürək və kürəkvuranlar xalqın dənizlə əlaqəsini, yəni ən qədim dövrlərdən Azərbaycan'da dənizçiliyin, qayıq və gəmiqayırmanın inkişaf etməsini açıb göstərir". (3, s. 154-155)

Qədim tarix dövründən Azərbaycan ərazisində həyat və mədəniyyət qalığı olan mərkəzlərə aid olan hissədə yazır:

"Azərbaycan ərazisində ilk insanlar dağların qoynundan və düzənliklərə gəlib buralarda əkinçilik və heyvandarlıqla məşğul olaraq oturaq həyat təşkil etdikdə, yadların hücumu müqabilində özlərindən müdafiə etmək və sel kimi təbii hadisələrdən amanda qalmaq üçün, dağlara yaxın və düzənliklərə səpələnən təpələrdə yurd salıb yaşamışlar. Bu vəziyyət Azərbaycan elləri və çoxu oturaq həyat keçirən Türk ellərində olmuşdur və buna görə də Türk xalqları daxilində "tiz» və ya

"diz" sözü olan kənd adlarına çox təsadüf olunur. Məsələn, Güney mahalından "Dizəmərcan", "Dizəxallı", "Sərkəndizə", …kəndlərini göstərmək olar. "Dizə" sözünün mənası isə "yüksək yer", "uca yer", "təpə" deməkdir. (Bax: Divan-ı Lüğat'it-Türk, III cild, səh-123.)… Bu günə qədər Güney Azərbaycan'da tanınmış təpələrdən "Həsənli Təpəsi", "Göytəpə" və "Yanıqtəpə"ni göstərmək olar". (Zehtabi, 1378, ss. 34-35)

"İran Türklərinin Əski Tarixi" kitabının ikinci cildi İsgəndər dövründən İslam'a qədər olan bir zamanı əhatə edir. Bu cilddə İsgəndər'in hücumu, Əhəmənilərin sonu, Atropaten dövləti, Alban dövləti, Partlar, Sasanilər dövlətlərinin yaranması və süqutu bu dövrdə güneyli-quzeyli Azərbaycan'ın sosial, siyasi, iqtisadi və mədəni həyatı zəngin qaynaqlar əsasında tədqiq və təhlil edilir.

"Azərbaycan" sözü nə deməkdir? Müəllif bu barədə yazır:

"Bilirik ki, bugünkü Həmədan və Azərbaycan torpaqlarından qədim dövrlərdə Lullubi-Qutti xalqları yaşamış və M.Ö. 2500 il əvvəldən başlayaraq mədəniyət yaradıb tarix səhnəsində zahir olmuş və nəhayət Manna höküməti qurmuşlar. Manna höküməti sonralar daha da genişlənib güclənərək Mad höküməti və xalqı adlanmışdır. Belə isə "Azərbaycan" sözü haradan meydana gəlmişdir və mənası nədir?… Fars və Farsla bağlı olan mənbələr Türk dili və tarixinə etinasız və ondan xəbərsiz olan alimlər qədimdən belə göstərmişlər ki, Atropat kəlməsi iki hissədən əmələ gəlmişdir: "Atur" (atəş-od) və "Pat" (mühafəz-gözətçi), guya "payidən" məsdəri və sözündən. Fars dili baxımından baxdıqda bu fikir doğrudur, lakin Türk dili baxımından bu kəlməyə (sözə) baxmaq lazımdır. Türk dili nöqteyi-nəzərindən baxdıqda bu söz üç tam başqa kəlmədən əmələ gəlmişdir. Bu sözlər "at" (od) və "ur-ər" və "pat"dan ibarətdirlər.

Bu gün də Azərilər və bütün Türklər daxilində "od" (atəş) kəlməsi "ot" şəklində tələffüz olunur, "a" səsinin "o" səsinə çevrilməsi, dilçilik baxımından təbii və adi bir fonetik hadisədir. "Ur-ər" sözü də ən qədim dövrlərdən bu günə qədər işlənmiş və işlənməkdədir və mənası igid, kişi, qoçaq və s. "Pat" kəlməsinin mənasına gəldikdə isə, bugünkü Azəri dilində onun özü və ondan düzəltmə olub, söz nəzərə gəlmirsə də şübhəsiz həm qədim dövrlərdə dilimizdə olmuş, həm də o dövr və ondan qabaqlar regionumuzun iltisaqi dilli xalqlarının dilində bu kəlmə olmuşdur. Şübhəsiz bu kəlmə və onun müştəqləri (düzəltmə, qol, budaq) Manna və Mad dillərində də olmuşdur ki, təəssüflə onlardan hələlik əlimizdə məlumat yoxdur. Ən qədim regionumuzun iltisaqi dillərinə gəldikdə isə bu kəlmə "Sumer" dilində olmuşdur.

Belə ki, o dildə əyalət, vilayət və şəhərlərin böyüyü, məsulu və qoruyanına "patesi" deyilirdi ki, onun "pat" hissəsi qorumaq, mühafizə etmək mənasında idi. Bu kəlmə Sumer dilinə Fars dilndən keçmişdir. Elə həmin bu kəlmə ya Sumer dilindən Qutti, Lullubi, Manna dillərinə

keçmş və çox ehtimal bu xalqların hamısı eyni köklü iltisaqi dilli olduqları üçün onların hamısında o cümlədən, Mannalıların ulu babaları olmuş ellərin də dilndə olmuşdur. Demək "Atropaten" sözü 4 hissədən ibarət olan əsil qədim Türk mənşəli sözdür. Onun birinci hissəsi "od" ismi, ikinci hissəsi "ər" sözü, üçüncü hissəsi "pat" (qorumaq) feli və sonuncu hissəsi ən qədim Türk dillərində ismin cəm əlamətlərindən biri idi. Bunu da qeyd edək ki, bu kəlmənin həm Fars, həm də Türk dillərində eyni mənada olmuş olmasını güman etmək olar və bu iki dildə belə müştərək sözlər olmuş və indi də az deyil». (Zehtabi, 1379, ss. 21, 24-25)

Ermənilər Azərbaycan'ı istila etmişlər? Haqqında yazır:

"Daşnak Ermənilər və tarixçi ideoloqları vasitəsiylə Aralıq Dənizindən Xəzər Dənizinə qədər torpaqları əhatə edən "böyük Ermənistan xəritəsi"ni uyduraraq bütün Şimali və Cənubi Azərbaycan torpaqları, bütün Türkiyə ərazisini bu "böyük Ermənistan"a daxil etmişlər. Tarixən heç bir zaman ərazinin əsas hissələri Ermənistan və ya onun bir hissəsi olmamışdır. Erməni tarixçiləri Daşnakların bu iddialarına guya tarixi zəmin yaratmaq üçün tarixi təhrif etməyə, uydurma tarix yaratmağa əl atmışlar. Erməni tarixçiləri yersiz iddialarına zəmin yaratmaq üçün gülün, elmə və tarixə yaraşmayan, alimə mənasız görünən işlərə əl atırlar… Erməni tarixçiləri Azərbaycan ərazisi haqqında tarixi bir fakt, boş və mənasız uyduraraq, bütün Azərbaycan ərazisini "böyük Ermənistan" xəritəsinə daxil etmiş və bu gün o torpaqları öz vətənləri, ata-baba yurdları göstərərək ələ keçirmək iddiasındadırlar". (Zehtabi, 1379, ss. 131-132)

"İran Türklərinin Əski Tarixi" kitabı haqqında Almaniya'nın Berlin Üniversitəsinin Türkoluqu, profesor Barbara Kellner Haikele bu tarixi kitab haqqında belə yazır:

"Profesor Zehtabi'nin bu kitabı iri həcmli və elmi əsər olduğu halda, əski zamanlardan bəri İran-Turan dövrün dil və ədəbiyatından təsir almış və dolğun analiz ilə yazılan bir əsərdir. Bu əsər uzun müddət elmi bəhslər ortaya çıxarıb və böyük arkeloq, filoloqları fikrə daldırıb ki, öz keçmiş tarixlərini, mükəmməl halda mütaliə və tətdiq etsinlər… Elm dünyası profesor Zehtabi'nin bəşəriyətə xidmət etməkdə, bir ilham qaynağı kimi tanıyır və onun unudulmaz və əbədi şəxsiyətin xatirəsini hər zaman əzizləyəcəkdir". (Zehtabi, 1383, s. 8).

Qeyd edək ki, M.M. Dayakov özünün "Qədim İran Tarixinə Dair Oçerklər" kitabında yazır: *"İran mədəniyəti yalnız Farslar tərəfindən yaradılmamışdır. Orta əsrlərin çox mühüm mədəni və ədəbi mərkəzlərindən biri də Azərbaycan olmuşdur".*

İran inqilabından sonra Vətəni Təbriz'ə dönən Zehtabi Təbriz Üniversitəsində tədrisi və ona olan maraq haqqında belə yazır:

“ … İran inqilabı qələbə çaldı və quldur şahılq rejimi devrildi. İnqilabdan bir həftə sonra Vətənə dönüb xidmət etmək üçün müvəqqəti höküməta müraciət etdim. Müsbət cavab aldıqdan, inqilabın qələbəsindən beş ay sonra, o xəyal ilə başa çatacaq, vətənə qayıtdım və neçə ay sonra Təbriz Üniversitəsi'ndə Azərbaycan Türkcəsi və Ərəb dillərini tədris etməyə başladım. Otuz ildən sonra xalqımın içində olmaq, Təbriz Üniversitəsi'ndə tədris zamanı yüzlərlə gənc Azərbaycan qızları və oğulları ilə yaxından tanışlıq nəticəsində xalqımızı nə səviyyədə və nə dərəcədə qavramağa hazır olduğunu bilmədiyi pedaqojik bir həqiqətin nəbzini tapdım, hiss etdim ki, xaricdə çap etdirdiyim «İran Türkcəsinin Sərfi (morfolojisi)» kitabının dili və səviyəsi yüksəkdir. Buna görə də Təbriz Üniversitəsi'ndə ana dilimizi tədris edərkən, tənzim etdiyim kopyaları dil və səviyə cəhətdən sadələşdirdim. Üniversitələr bağlandı kopyalar yarımçıq qaldı. Lakin mən ana dilimizi öyrənmək üçün bir yol yaratmaq işimə davam etdim və Təbriz Üniversitəsi'ndə işləyib "Leksioloji-ye Zəban-e Ədəbi-ye Muaser-e Azəri" ("Müasir Azərbaycan Ədəbi Dilinin Leksikolojisi-S.T.") əsərini yazdığım zaman ana dilimizi öyrənmək məqsədiylə müraciət edən gənclərdən istifadə edərək, "Ana Dilimizi Öyrənək" adlı dilimizin səs bölümü və morfolojisini əhatə edən olduqca qısa, sadə bir kitab yazdım. Bu kitabdan bəzi gənclər yararlandılar".

Nəticə

Profesor Zehtabi Təbriz şəhərində çoxlu Azərbaycansevər dostları ilə "Azərbaycan mədəniyyət ocağı"nı qurdular. O, neçə illər boyu ardı-arası kəsilmədən bu ocağın iclaslarında iştirak edib, xalqımızın ədəbiyyat və keçmiş tarixini tanıtdırmışdır. Bu ocaq indi də Doktorun qurduğu əsasda davam edir.

Bu cəhətdən Güney Azərbaycanda Zehtabi ideyalarına söykənən yeni məktəbin fəaliyyəti diqqəti çəkir və bu məktəbin iştirakçıları Azərbaycan tarixinin qədim dövrünü obyektiv qiymətləndirmək cəhətdən Zehtabi ənənələrini uğurla davam etdirirlər. Hal-hazırda Güney Azərbaycanda və İranda dövrü mətbuatda çap olunmuş məqalələrin və kitabların müəyyən qismində Zehtabi tədqiqat xəttinin davamı açıq aydın görünür.

Qaynaqlar

"Dilmac" dərgisi (türk və fars dillərində). (Yanvar 2004, Dey ayı, 1383), s. 8.

TALIBLI, S. Ə. (2002). Doktor Məhəmmədtağı Zehtabinin həyat və yaradıcılığına bir baxış (tarixi aspektdə). Bakı: AMEA Nəsimi adına Dilçilik İnstitutu, s. 267Ḍ269.

TALIBLI, S. Ə. (2006). Professor Məhəmmədtağı Zehtabi və onun əsərləri haqqında. AMEA Folklor İnstitutu "Elmi axtarışlar" (Folklorşünaslıq: filologiya, fəlsəfə, tarix, incəsənət və nəzəriyyə aspektləri), XXI. Bakı, s. 31.

ZEHTABİ, Məhəmmədtağı (1379). Müasir ədəbi azəri dili (səs-sərf). Təbriz, "Aşina", 335 s.

ZEHTABİ, Məhəmmədtağı (1383). "Ərmağan-e Azərbaycan" dərgisi (türk və fars dillərində). "21 Azər" nehzətinin yaranması. 3-cü il, № 40. Doşənbe, 15 Azər ayı, s. 74Ḍ77.

ZEHTABİ, Məhəmmədtağı (Kirişçi) (1378). "İran türklərinin əski tarixi". Ən qədim dövrdən İsgəndərə qədər. I cild. Təbriz, 880 s.

ZEHTABİ, Məhəmmədtağı (Kirişçi) (1999, 1379). "İran türklərinin əski tarixi". İsgəndər dövründən İslama qədər. II cild. Təbriz.

ZEHTABİ, Məhəmmədtağı (M. Şəbüstərli) (1380). "İslama qədər İran türklərinin dili və ədəbiyyatı". Təbriz, "Əxtər" nəşriyyatı, 176 s.

Sübhan TALIBLI 0000-0002-6331-5865

Doç. Dr. Azerbaycan Milli Bilimler Akademisi Doğu Bilimleri Enstitüsü.

Yazı Bilgisi:

Alındığı Tarih: 12 Ağustos 2026

Yayına Kabul edildiği tarih: 1 Eylül 2026

E-yayın tarihi: 30 Eylül 2026

Çıktı sayfa sayısı: 17

Kaynak sayısı: 8